

# GENDER MEYNSTRİMİNQ

## QISA İCMAL

## GENDERİN MEYNSTRİMİNQ – GENDERİN MÜXTƏLİF SAHƏLƏRƏ TƏTBİQİ NƏDİR?

Gender bərabərliyi və qadınların səlahiyyətlərinin genişləndirilməsi üçün bütün dünyada qəbul edilmiş strategiyadır. Bu, müxtəlif səviyyə və mərhələlərdə bütün siyasətlərdə gender bərabərliyinin önə çəkilməsi məqsədilə qadın və kişilərin maraq və narahatlıqlarının siyasətlərin hazırlanmasına cəlb edilmiş subyektlər tərəfindən bütün siyasət, proqram və layihələrə inteqrasiya edilməsi prosesidir (Avropa Şurası, 1998).

Genderin bütün sahələrə tətbiqi gender perspektivinin müxtəlif siyasətlərin məzmununa inteqrasiya edilməsini, eləcə də qadın və kişilərin müvafiq siyasət sahələrində təmsil edilməsi məsələsinin əhatə edilməsini nəzərdə tutur.

Genderin bütün sahələrə tətbiq edilməsi üçün öhdəliyin götürülməsi hökumətlərin gender bərabərliyini dəstəkləməsi və təbliğ etməsi üçün ən effektiv üsullardan biridir. Genderin bütün sahələrə tətbiqində məqsəd həm qadınların, həm kişilərin resurslara bərabər çıxış əldə etmək və qərar qəbuluna töhfə vermək üçün hüquq və imkanlarının təmin edilməsidir.

## GENDERİN BÜTÜN SAHƏLƏRƏ TƏTBİQ EDİLMƏSİ NƏ ÜÇÜN VACİBDİR?

Genderin bütün sahələrə tətbiqi bütün insanların – bütün müxtəliflikləri ilə qadın və kişilərin, oğlan və qızların – ehtiyaclarının siyasət və proqramlara inteqrasiya edilməsi

**Bu nəşr Avropa İttifaqı tərəfindən maliyyələşdirilib. Nəşrin məzmununa görə yalnız NIRAS məsuliyyət daşıyır və məzmun Avropa İttifaqının mövqeyini əks etdirməyə bilər.**

## Aİ GENDER BƏRABƏRLİYİ NAMİNƏ İSLAHATLARA DƏSTƏK XİDMƏTİ NƏDİR?

Avropa İttifaqı tərəfindən maliyyələşdirilən Aİ Gender Bərabərliyi naminə İslahatlara Dəstək Xidməti[1] tələb əsasında Şərq Tərəfdaşlığı ölkələrindəki hökumətlərə və Aİ nümayəndəliklərinə[2] qadın və kişilər üçün effektiv nəticələrin təmin edilməsi məqsədilə gender aspektlərini siyasətlərin formalaşdırılması prosesinə tətbiq etməkdə və islahatların icrasında yardım edir

## HƏDƏF AUDİTORİYA

Bu icmal Şərq Tərəfdaşlığı ölkələrində və onların sərhədlərindən kənarda insanlara faydalı olacaq hüquqi akt, siyasət, proqram və layihələri hazırlayan hər kəs (dövlət müəssisələrinin əməkdaşları, Aİ nümayəndəlikləri, vətəndaş cəmiyyəti təşkilatları və başqa beynəlxalq inkişaf tərəfdaşları) üçün yararlı ola bilər. O həmçinin bu ölkələrdə qanunvericilik bazasını, siyasətin və layihələrin formalaşdırılması sahələrini araşdıran və/və ya bunları işıqlandıran KİV nümayəndələri, elmi dairələrin nümayəndələri və tədqiqatçılar üçün faydalı ola bilər.

---

[1] Belarusda İslahatlara Dəstək Xidməti yalnız Aİ nümayəndəliyinə yardım təmin edir.
[2] Şərq tərəfdaşlığı Aİ, ona üzv dövlətlər və altı Şərqi Avropa tərəfdaş ölkəsinin cəlb olunduğu birgə təşəbbüsdür: Ermənistan, Azərbaycan, Belarus, Gürcüstan, Moldova və Ukrayna.

**Avropa İttifaqı tərəfindən maliyyələşdirilir**

**Aİ Gender Bərabərliyi naminə İslahatlara Dəstək Xidməti**

İcraçı

NIRAS

məqsədi daşıyan inklüziv strategiyadır. Genderin bütün sahələrə tətbiqi qeyri-bərabərliklərin davam etməməsini təmin edərək dövlət müdaxilələrinin effektivliyini artırır.

Siyasət və proqramların vətəndaşların ehtiyaclarına daha effektiv cavab verməsinə imkan yaratdığına görə genderin bütün sahələrə tətbiqi daha yüksəkkeyfiyyətli, daha müvafiq siyasətyaratma və qanunvericilik işinin formalaşmasına gətirib çıxarır. Daha yaxşı nəticələrin əldə edilməsi həm qadınların, həm kişilərin rifahının artmasına, sosial cəhətdən daha ədalətli və dayanıqlı cəmiyyətin yaradılmasına rəvac verir.

Bu yanaşma resursların səmərəli paylaşdırılmasına imkan verir; əksinə bütün benefisiarların ehtiyac və vəziyyətlərinin nəzərə alınmadığı qərarlar qeyri-müvafiq həll yollarına və dövlət vəsaitinin qeyri-adekvat paylanmasına səbəb olur.

## GENDER MƏSƏLƏLƏRİNİ SİYASƏT/ PROQRAM DÖVRƏSİNƏ NECƏ TƏTBİQ EDİRİK?

Proqram səviyyəsində gender məsələləri aşağıdakı ardıcıllığının izlənilməsi ilə proqram dövrəsinə tətbiq edilə bilər:

1

**ADDIM 1: GENDER TƏHLİLİ**
Gender təhlilinin məqsədi həm qadınlara, həm kişilərə ünvanlanan qanun, siyasət, proqram və layihələrin hazırlanması üçün dəlillərin toplanmasından ibarətdir. Gender təhlili genderin bütün sahələrə tətbiqi üçün vacib başlanğıc nöqtəsidir. O, müəyyən şəraitdə və ya inkişaf sektorunda məsələlərin qadınlara və kişilərə necə fərqli və qeyri-bərabər təsir etdiyini və bunların səbəblərini, bu çətinliklərin aradan qaldırılması üçün hansı variantların olduğunu müəyyən edən vəziyyəTin təhlilinin ayrılmaz hissəsidir. Bu mərhələ haqqında daha ətraflı məlumat üçün Aİ Gender Bərabərliyi naminə İslahatlara Dəstək Xidmətinin gender təhlili haqqında qısa icmalını nəzərdən keçirin..

2

**ADDIM 2: PROQRAMIN LAYİHƏLƏNDİRİLMƏSİ**
Bu mərhələ gender təhlili nəticəsində əldə edilən qənaətlərin proqramın layihələndirilməsi zamanı tətbiq edilməsini nəzərdə tutur. Proqramın layihələndirilməsinə prioritet məsələlərin, hədəf qrupların, əhatə dairəsinin seçilməsi, onların proqramın nəticələri, göstəriciləri və müdaxilə metodlarına inteqrasiya edilməsi daxildir.

3

**ADDIM 3: RESURSLARIN PAYLAŞDIRILMASI**
Genderin bütün sahələrə tətbiqi prosesində gender bərabərliyi məsələlərinin proqram dövrəsində effektiv əhatə olunması üçün adekvat resursların ayrılmasının təmin edilməsi son dərəcə vacibdir.

4

**ADDIM 4: PROQRAMIN İCRASI**
Bu addım proqramın icrası üçün sektorlar və sahələrarası tərəfdaşlıqların dəstəklənməsini, qadın təşkilatları daxil olmaqla, bir sıra maraqlı tərəflərin cəlb edilməsini nəzərdə tutur.

5

**ADDIM 5: MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ**
Effektiv monitorinq və qiymətləndirmə gender bərabərliyi ilə əlaqəli strateji qərarların qəbulu üçün dəlil bazasının formalaşdırılmasına, inkişafın daha yaxşı planlaşdırılmasına, qurumlardan gender bərabərliyi öhdəliklərinə görə hesabatın alınmasına imkan verir (BMT-nin Qadınlar Təşkilatı)

## DÜNYADA VƏ Aİ-DƏ GENDERİN BÜTÜN SAHƏLƏRƏ TƏTBİQ EDİLMƏSİNƏ DAİR MÜDDƏALAR

Genderin bütün sahələrə tətbiqi Şərq Tərəfdaşlığı ölkələrinin riayət etmək öhdəliyi götürdükləri, insan hüquqları və gender bərabərliyi ilə əlaqəli olan aşağıdakı kimi beynəlxalq sənədlər daxil olmaqla, beynəlxalq hüquq sistemində tanınır:

1. Qadınlara qarşı Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv Edilməsi Haqqında Konvensiya (CEDAW), 1979.
2. Pekin Bəyannaməsi və Fəaliyyət Platforması, 1995.
3. BMT TŞ-nin Qadınlar, Sülh və Təhlükəsizlik (QSH) üzrə 1325 saylı Qətnaməsi və BMT TŞ-nin əlavə doqquz QSH qətnaməsi.
4. 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik və onun 17 Dayanıqlı inkişaf məqsədi (DİM-lər).

Genderin bütün sahələrə tətbiqi Avropa İttifaqının (Aİ) siyasi gündəliyində əhəmiyyəti getdikcə artan məsələdir. Aİ müxtəlif sənədlər vasitəsilə genderin bütün sahələrə tətbiqi məqsədinə bağlı olduğunu nümayiş etdirmişdir. Aİ səviyyəsində genderin bütün sahələrə tətbiqinə görə Aİ institutları cavabdehdir, milli səviyyədə isə genderin bütün sahələrə tətbiqi Aİ-yə üzv dövlətlərin hökumətlərinin öhdəliyindədir.

2020–2025-ci illə üzrə Aİ Gender Bərabərliyi Strategiyası 2025-ci ilə qədər gender bərabərliyinin təmin olunduğu Avropa yaratmaq istiqamətində əhəmiyyətli irəliləyişin əldə edilməsi üçün siyasət məqsədlərini və fəaliyyətləri

təqdim edir. Məqsəd bütün müxtəliflikləri ilə qadın və kişilərin, qız və oğlanların həyatda seçdikləri yolu izləməkdə azad olduqları, inkişaf üçün bərabər imkanlardan yararlana bildikləri və Avropa cəmiyyətinin həyatında bərabər iştirak və liderlik edə bildikləri İttifaq yaratmaqdır.

Strategiyanın əsas məqsədləri gender əsaslı zorakılığa son vermək; gender stereotiplərinə meydan oxumaq, əmək bazarında gender fərqlərini aradan qaldırmaq; iqtisadiyyatın müxtəlif sektorlarında bərabər iştiraka nail olmaq; əməyin ödənilməsi və təqaüdlərdəki fərqləri aradan qaldırmaq; ailə üzvlərinə qulluq işlərindəki fərqləri aradan qaldırmaq, qərar qəbulu və siyasətdə gender bərabərliyinə nail olmaqdır. Strategiya genderin bütün sahələrə tətbiqini məqsədyönlü fəaliyyətlərlə birləşdirən ikili yanaşmanı həyata keçirirvə interseksuallıq onun icrasında bütün aspektlərə tətbiq olunan prinsipdir.

Aİ-nin 2020–2025-ci illər üzrə Gender bərabərliyi strategiyasında Aİ daxilindəki fəaliyyətlər diqqət mərkəzində olsa da, o, Aİ-nin gender bərabərliyi və qadınların səlahiyyətlərinin genişləndirilməsi üzrə xarici siyasəti ilə uyğunluq təşkil edir.

Aİ-nin 2021–2025-ci illər üzrə Xarici əlaqələrdə gender bərabərliyi və qadınların səlahiyyətlərinin genişləndirilməsi üzrə fəaliyyət planının (GAP III) məqsədi qadın və qızların səlahiyyətlərinin genişləndirilməsi sahəsində irəliləyişi sürətləndirməkdir. GAP III bütün siyasət və fəaliyyətlərdə münasibətləri dəyişdirilməsi və fərqliliklərin bərabərliyi yanaşmasını təşviq edir. Aİ xarici fəaliyyətlərinin azı 85%-də gender bərabərliyinin əsas və ya əhəmiyyətli məqsəd kimi qarşıya qoyulmasını təmin etmək üçün öhdəlik götürüb. Aİ bərpa, dözümlülük və islahat sahələrində yenilənmiş Şərq Tərəfdaşlığı gündəliyi vasitəsilə Şərq Tərəfdaşlığı ölkələrinin - bütün siyasət sahələrində gender bərabərliyinin və qadınların səlahiyyətlərinin genişləndirilməsinin təbliği, eləcə də genderin bütün sahələrə sistemli tətbiqi və genderə həssas büdcə tərtibatı ilə resurslara bərabər çıxışın dəstəklənməsi istiqamətində - göstərdikləri cəhdləri dəstəkləmək öhdəliyinə sadiqdir.

## QABAQCIL TƏCRÜBƏLƏR

Gender bərabərliyi Şərq Tərəfdaşlığı ölkələrinin konstitusiya və hüquq sistemlərində formal olaraq müəyyən edilmiş olsa da, genderin bütün sahələrə tətbiq edilməməsi ciddi gender bərabərliyinin qarşısını alır. Buna görə də Aİ Gender Bərabərliyi naminə İslahatlara Dəstək Xidməti yarandığı gündən bəri Şərq Tərəfdaşlığı ölkələrindəki proqram və islahatlarda genderin bütün sahələrə tətbiqini dəstəkləyir. Qabaqcıl təcrübə nümunələrinə daxildir:

**Ermənistan**: İslahatlara Dəstək Xidməti Ermənistan Respublikası üçün İqtisadi Tədbirlər Proqramı və Fəaliyyət planında, Ermənistan üçün 2021–2027-ci illər üzrə Çoxillik İndikativ proqramda, Aİ-nin Ermənistandakı nümayəndəliyinin Təhsil üzrə Fəaliyyətlər siyahısında genderin tətbiqini dəstəkləmişdir.

**Azərbaycan**: İslahatlara Dəstək Xidməti Azərbaycan Respublikası Ədliyyə Nazirliyi, Penitensiar Xidmət və Ədliyyə Akademiyasının əməkdaşlarına təcridxanalarda genderə həssas idarəetmə, qadın məhbusların cəmiyyətdə reinteqrasiyası mövzularında təlim keçməklə gender aspektinin ədliyyə sektorundakı islahatlara tətbiqinə dəstək göstərmişdir.

**Gürcüstan**: İslahatlara Dəstək Xidməti gender aspektinin yeni qanunvericiliyə tətbiqinə dəstək məqsədilə Gürcüstanın "Qida itkisinin və tullantıların azaldılması və ianə edilməsi" haqqında qanun layihəsinin gender təsirlərinin qiymətləndirməsini aparmışdır.

**Moldova**: İslahatlara Dəstək Xidməti hazırda BMT Təhlükəsizlik Şurasının 1325 saylı qətnaməsi əsasında yeni Fəaliyyət planının hazırlanması üçün Moldova Müdafiə Nazirliyinə dəstək göstərir.

**Ukrayna**: İslahatlara Dəstək Xidməti gender aspektinin 2022-2032-ci illər üzrə Ukrayna Bərpa Planına tətbiq edilməsinə yardım üçün 40 nəfərdən ibarət ekspert qrupun yaradılmasına dəstək göstərmişdir. Qrup Ukraynanın Milli Şurası tabeliyində yaradılan, 24 sektora aid işçi qrupda gender aspektini inteqrasiya etmək üçün çalışmışdır. Əsas mövzular(iqtisadiyyatın bərpası, sosial bərpa, infrastrukturun bərpası, intellektual bərpa arxitekturası və ekologiyanın bərpası) Ukrayna Bərpa Konfransı (Luqano, iyul 2022) üçün hazırlanan beş siyasət icmalına və analitik materiallara genderin bütün sahələrə tətbiqi yanaşması inteqrasiya edilmişdir

## FAYDALI KEÇİDLƏR

- AİGender Bərabərliyi naminə İslahatlara Dəstək Xidmətinin layihə səhifəsi
- Gender bərabərliyi kitabxanası
- Aİ-nin Şərq qonşuları veb-saytı

GENDER BƏRABƏRLİYİ KİTABXANASINA BAŞ ÇƏKİN

© Avropa İttifaqı 2023